*" ...Yüksəyə, daha yüksəyə!...*
*Bu ucalığa səndən qabaq heç kəs qalxmamışdı...*
*Amma onlar da bu gün səninlədirlər, sənlə uçurlar,*
*sənin bu səma yolunda onların da izi var.*
*Yolun uğurlu olsun!..."*

❖ ❖ ❖

**... Filmin baş qəhrəmanı Kamilin dilindən söylədiyi bu monoloq bitir və gözlərimin önündə filmin son kadrlarıdır - Kamilin hərbi təyyarədə şahin kimi süzdüyü əngin səmalar, aşağıda dənizə tərəf uzanıb gedən insan məskənləri, dalğalı dəniz, Xəzərin zümrüd rəngli yaxasını naxış tək bəzəyən Neft Daşları və xəyalımı sonsuzluğa qədər alıb götürən ecazkar musiqisi...**

**"TORPAQ, DƏNİZ, OD, SƏMA" *bədii filmi* bax beləcə tamamlanır...**

**Ekranda illərdən bəri belə məqamlarda gözümüz öyrəşmiş "Filmin sonu" kəlmələri donub qalır və mən ömrü cəmi bir neçə saniyə olan iki kəlməyə baxa-baxa hiss edirəm ki, bu, filmin efirdəki sonudur, mənim düşüncələrimdə isə bayaqdan bəri seyr etdiyim təsirli bir *həyat hekayətinin* davamı hələ indi başlanır...**



# TORPAQ, DƏNİZ, OD, SƏMA və... ŞƏXSİYYƏT

❖ ❖ ❖

Bu düşüncə bir az da uşaqlığımı xatırladır...

Qəribə xasiyyətim vardı, uşaq vaxtı: oxuduğum bir kitab, baxdığım bir film çox xoşuma gələndə o, başa çatandan sonra da xəyallarımda onun davamını düzüb-qoşmağa çalışardım, günlərlə bu düşüncəyə qapılıb qalardım, uşaq təxəyyülümlə sevimli qəhrəmanlarımın gələcək həyatlarını təsvir etməyə can atardım, onları özümün də yaşadığım, içində dolaşdığım həyata gətirərdim.

**Beləliklə, uşaqlıq xəyallarım xoşladığım filmlərin, bədii kitabların heç zaman bitməyən və o filmləri, o kitabları mənim üçün başa çatmağa qoymayan uzun-uzun epiloqları ilə dolu olardı.**

İndi fikirləşirəm ki, illər sonra böyüyüb əlim qələm tutandan sonra Sözə könül verməyimin bir səbəbi də yəqin, elə o qəribə xasiyyətim olub...

❖ ❖ ❖

Bu film Anarın 4 novellasının motivləri əsasında lentə alınıb.

Elə film özü də 4 novella-mahnıdan ibarətdir: **Torpaq, Dəniz, Od, Səma...**

Adlar rəmzi məna kəsb edir. Elə filmdəki kiçik dənizkənarı kənddə bir-birinin davamı olan və bir-birini əvəzləyən 4 nəslin müxtəlif dövrlərlə əlaqədar taleləri də rəmzi səciyyə daşıyır.

İnsanları zamandan, yaxud zamanı insanlardan keçirən belə əsərlər, nədənsə, həmişə adama maraqlı gəlir.

**"Torpaq, dəniz, od, səma"** filmində baş verənlər mif deyil, aramsız əsən zaman fırtınasının kiçik bir kənddə yaşayan insanlar misalında ümumən bir xalqın tarixinin 4 ardıcıl mərhələsində, 4 nəslinin həyatında yaratdığı dəyişikliklərdir.

Bu dəyişikliklər yenə də ssenaridə olduğu kimi eyni *rəmzlərdən* - ***Torpağın, Dənizin, Odun, Səmanın*** *rənglərindən* keçir.

**Bu dörd rəmzin, dörd rəngin vəhdətinin yaratdığı təsvir, mənim üçün elə Azərbaycanın özü deməkdir.**

*Və mən bu rəmzlərin rəngi ilə, o rəmzlərdən təsirlənən təxəyyülümün gücü ilə, əslində, Vətənin - Azərbaycanın keçmiş, bu gün və gələcəyin əhatəsindən ucalan rəsmini cızmağa can atıram...*

❖ ❖ ❖

## TORPAQ...

*Bu sözdəki qüdrətə və cazibə qüvvəsinə hər zaman heyrətlənmişəm...*

Torpağın bir də vətən, yurd, ocaq, dövlət üzü var, üzərində dalğalanan müqəddəs bayrağının kölgəsində köks dolusu qürura çevrilməyi var.

**Uzun illər əvvəl Heydər Əliyev şəxsiyyəti təfəkkürümüzdəki Ana Vətən anlayışını konkretləşdirib dəqiqləşdirdi, Azərbaycanda milli şüuru oyandırmaqla, respublikanın sosial-iqtisadi inkişafı naminə gördüyü işlərlə, vətəndaşlarda milli təəssübkeşlik hissinin formalaşmasından ötrü apardığı məqsədyönlü fəaliyyətlə üzərində dolaşdığımız torpaqların bizim əsas vətənimiz olduğunu anlatdı.**

*Biz Azərbaycanı bir də Heydər Əliyev kimi böyük şəxsiyyətlər yetirmiş doğma məmləkət misalında sevdik.*

**Azərbaycan və Heydər Əliyev adları ilə hər yerdə qürurlandıq, Ana Vətənin hüdudlarından kənarda özümüzü həmişə bu adlarla nişan verdik və bu adların haləsində şəxsimizə daim böyük hörmət gördük.**

*Gün gəldi, Azərbaycan adlı bu bir parça müqəddəs torpaq azadlıq işığına çıxdı, üzərinə üç rəngli, aylı-ulduzlu bayrağımız dalğalandı, özü-öz taleyinin, özü-öz halal sərvətlərinin sahibinə çevrildi.*

*Və bu torpaq bizim üçün qəlbimizdəki istiqlal qüruru ilə bahəm, yağı düşmənin işğalına məruz qalan, elləri yağmalanan, ocaqları söndürülən, yaşıl-yaşıl otlarına, əlvan-əlvan çiçəklərinə şəhidlərimizin qanı çilənən, təklənən, dörd bir yandan kəmfürsətlər üzərinə gələn yaralı, nisgilli doğma məkanın acıları ilə də dəyərli oldu.*

**Vətəni yaraları ilə bağrımıza basdıq, acılarını göz yaşlarımızla, qəlbimizin hərarəti ilə ovutmağa çalışdıq.**

*Və elə o anlarda həyatımızın bu ən dəyərli cəvahirini tarixin qasırğalarında itirmək, onu param-parça bir halda görmək qorxusunu iliklərimizə qədər hiss etdik. O çətin anlarda Azərbaycanı tufanlardan qoruyan, yurdu tar-mar olub külü göyə sovrulmaqdan hifz edən, üçrəngli bayraq altında ölkənin, dövlətin bütövlüyünü saxlayan, insanları vahid amal, ideologiya, dövlətçilik işığı ətrafında toparlayan qüvvə, qüdrət yenə də* ***Heydər Əliyev şəxsiyyəti*** *oldu.*

***Heydər Əliyev* bu torpaqlara xeyir-bərəkət gətirdi, torpağı özünün əsl sahibinə - kəndliyə ərməğan etdi, sinəsi qabar bağlayan, toxuma, suya həsrət torpaq insan əlinin hərarəti, tumarı ilə yenə pilə kimi yumşaldı, yaşıllandı, barını-bəhrəsini əsirgəmədi, onu sevgisi ilə dənəvərləyən, hər qarışının qayğısını çəkən insanları dirildib dirçəltdi, təknəsini, süfrəsini halal ruzi ilə doldurdu.**

Azərbaycan öz milli hədəflərinə doğru yürüdükcə, torpaq da bərəkətləndi, insanlarımızın əllərini sevindirdi, üzərində aparılan böyük quruculuq proseslərini peyğəmbər süfrəsi kimi açıb tökdüyü bitib-tükənməz sərvətləri ilə töhfələndirdi.

***Heydər Əliyev*** *yadigarının - Azərbaycan Respublikasının Prezidenti cənab* ***İlham Əliyevin*** *müəllifliyi ilə yaradılan yeni tarixi dönəmdə bu torpaqlar Azərbaycanın özü boyda abadlıq, quruculuq tablosuna çevrildi.*

**Azərbaycanın milli dövlətçilik tarixinin bu ən qüdrətli mərhələsinin hər keçən günü bu tablonun yeni bir boyasıdır.**

*Hər keçən gün bu* tabloya *yeni bir abadlıq nişanəsi, yeni bir inkişaf çaları əlavə edir, rəhbər qəlbinin sevgisi, insan əlinin qüdrəti bu torpaqlarda cənnət yaradır, əsrlərlə yol, elektrik, istilik, dünyadan bir xəbər-ətər üzünə həsrət məkanlara indi qara şərid kimi hamar asfalt yollar, qaz, su, elektrik, rabitə xətləri uzanıb gedir, bir atanın öz balasına doğru uzanan qolları kimi bu yollar, bu xətlər də dövlətin öz vətəndaşına doğru uzanan güclü qollarını xartırladır.*

***Azərbaycan torpağı*** *- bu gün dövlətlə vətəndaşların, Prezidentlə xalqın qəlb-qəlbə, çiyin-çiyinə məmləkətin gələcəyini yaratdıqları hünər meydanıdır. Yurdun bu gününün də, gələcək tarixinin də şərəf salnamələri bu meydanda yazılır, gələcək nəsillərin adı ilə, şəxsiyyəti ilə qürur duyacaqları qəhrəmanlar bu meydanda yetişir.*

**Dövlətə sonsuz sevgisi ilə, xalqa mərdi-mərdanə, təmənnasız xidməti ilə, Prezidentə, Onun insanların xoşbəxtliyi naminə həyata keçirdiyi siyasətə dəstəyi ilə yetişir...**

Bu *Torpaq* ona doğru yönələn təhlükələri, təhdidləri dəf etməkdən ötrü gecəsini-gündüzünə qatanların, onun bağrındakı hər ağacın, hər daşın, hər sünbülün də qeyrətini çəkənlərin, əldə silah səngərlərdə bu torpaqları gözünün nuru kimi qoruyan düşmən çəpəri oğulların, bu torpaqların barına-bəhrəsinə əllərinin bərəkətini qatan halal zəhmət adamlarınındır.

Bu *Torpaq* özünü canı ilə də, qanı ilə də buralara aid bilənlərin, Azərbaycan adı hər çəkiləndə bu sözdən ruhu titrəyənlərindir.

*Mən bu sətirləri qələmə aldığım anlarda aprel döyüşlərindən bir ay keçmişdi. Qoşunların təmas xəttində ermənilərin törətdikləri təxribatların qarşısının alınması zamanı həlak olan şəhidlərimizin, Vətən uğrunda canını, sağlamlığını qoyan qazilərimizin qanı bahasına düşmən tapdağından azad edilmiş yüksəkliklərdə indi Azərbaycan bayrağı dalğalanır.*

**Bu igidlər öz qəhrəmanlıqları ilə misilsiz bir tarix yazdılar!..**

*Elə bir tarix ki, Azərbaycanda hamı, hər kəs onun bir parçası olmaq istədi.*

*Elə bir tarix ki, bu tarixdə şəhidlərin itkisinə göz yaşları tökülmədi. Onların şəhadəti ilə hamı qürur duydu! Hər kəs bu qəhrəmanların məqamında olmaq istədi, onlarla eyni zirvəni paylaşmağı arzu etdi.*

**Həmvətənlərimizin öz evlərinin eyvanlarında, pəncərələrində ucaltdıqları, avtomobillərində asdıqları bayraqlarla, ordumuzun zəfər soraqları ilə bir-birini müjdələyən insanların çöhrəsindəki qürur ifadəsi ilə, cəmiyyətdəki qələbə coşqusu ilə bütün Azərbaycan bu tarixdə bütünləşdi, bütövləşdi.**

*Ordumuz bu qələbəni təkcə bir ölkə, bir xalq, bir Vətən adına qazanmadı, həm də bəşəriyyətin ən ali dəyərlərindən olan ədalətin zəfəri kimi tarixə yazdı.*

***Azərbaycan torpaqlarını illərdir işğal altında saxlayaraq, bir milyondan artıq məcburi köçkünümüzü öz yurd-yuvalarına həsrət qoyaraq ədalət meyarlarını pozan düşmənin üzərindəki böyük üstünlüyü ilə, haqlı olanın əvvəl-axır qalib gələcəyini göstərdi.***

İşğal altındakı rayonlarımızın müharibə yolu ilə düşməndən təmizlənməsinin cəmi iki-üç günün işi olduğunu, əgər aparılan sülh danışıqları, diplomatik cəhdlər bir səmərə verməzsə, Azərbaycanın öz hüquqlarına əsaslanaraq torpaqları hərbi gücü ilə geri alacağını sübut etdi.

**Və dünya bu reallıqla barışdı. Azərbaycan düşmənin burnunu ovdu və bu haqlı addımını dünyaya da qəbul etdirdi.**

*Beynəlxalq qurumların, xarici ölkələrin* son hadisələrə reaksiyalarından, təmas xəttindəki ağır məğlubiyyətdən başını itirmiş Ermənistan hakimiyyətindəki isterik ovqatdan da belə sezildi ki, indi dünya bu məsələyə münasibətdə haqlı və güclü olanın - yəni, Azərbaycanın yanındadır.

*Beynəlxalq aləm* daha illər əvvəlki kimi Azərbaycanın haqq səsinə qulaqlarını qapaya, sözümüzü, mövqeyimizi gözardı edə bilmir. Çünki indi bu, dünyanın ən sürətli inkişaf tempinə, geniş imkanlara malik ölkələrindən birinin, qlobal əhəmiyyətli layihələrin əsas təşəbbüskarının, Avropanın enerji təhlükəsizliyinin başlıca təminatçısının, ən nəhayət, nüfuzlu müstəqil dövlətin və onun bütün məsələlərlə bağlı öz fikri, öz sözü, öz mövqeyi olan, heç bir xarici qüvvənin daxili işlərimizə qarışmasına, bizi hansısa güzəştlərə sürükləməsinə yol verməyən *Liderinin mövqeyidir!*

**Dağlıq Qarabağ münaqişəsi ətrafında yaşanan son olaylar Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bu qətiyyətli mövqeyinin zəferidir.**

*Ali Baş Komandanımızın bu qətiyyətindən, Azərbaycan əsgərinin qəhrəmanlığından sarsılıb başını itirən Ermənistan artıq fərqindədir ki, ədalətsiz mövqeyindən, təcavüzkar siyasətindən əl çəkməyənə qədər, bu torpaqda onun yeganə nəsibi ölüm olacaq.*

Azərbaycan əsgərinin barmağı tətikdədir. Cəbhədəki ağır məğlubiyyəti sinirə bilməyən düşmən təmas xəttində təxribatlarını davam etdirir və hər etdiyinin cavabını alır.

**Bizim vətəndaş olaraq elliklə içində bütünləşdiyimiz tarix davam edir.**

Pəncərələrdən, eyvanlardan, avtomobillərdən yenə bayraqlarımız asılıb. Hamı coşqu içindədir, hər kəs həm təmas xəttindəki səngərlərdən, həm də diplomatik səngərlərdən yeni zəfər soraqları gözləyir.

**Bu, bir xalqın qalibiyyət ruhudur!..**

*İndi bizim ən çox bu ruhu qorumağa ehtiyacımız var. Nədən bu ruhu hər fürsətdə büruzə verməyək, daha da qanadlandırmayaq?! Çox adi məqamları nəzərə almaqla edə bilərik bunu. Dövlət himnimizin sözlərini əzbərləyib, himnin səsləndirildiyi hər yerdə ürək dolusu oxumağımızla, evimizdə, iş yerlərimizdə dövlət atributlarını saxlamağımızla, Azərbaycan tarixinə, mədəniyyətinə aid nə varsa öyrənib, uca tutub, gələcək nəsillərə ötürməyimizlə vətəndaşlıq coşqusunu hər zaman diri saxlaya bilərik.*

**Bu - bir görüntü deyil, bu torpağın, bu tarixin, bu mədəniyyətin hər parçasının bizə aidliyi duyğusunun ifadəsidir.**

❖ ❖ ❖

## DƏNİZ...

Qarşımızda Xəzərdir - dünyanın ən böyük gölü...

Mübaliğəyə varmıram, zərrə qədər də pafosla yazmıram: Xəzər Azərbaycanın çörək təşnəsidir...

**Və İSTİQLAL Abidəsidir...**

*Xəzər başlanğıcdır - inkişafın və əbədi müstəqilliyin təməl daşıdır, möhkəm bünövrəsidir...*

*Xəzərin nemətləri* Azərbaycanın intibahının rəhnidir, tərəqqimizin davamlılığının təminatçısıdır, insanlarımızın xoşbəxt yaşayışının səbəbkarıdır.

*Xəzərin nemətləri* Azərbaycanın dörd bir yanının tikinti meydanına, quruculuq məkanına çevrilməsidir, dünyanın ən gözəl şəhərlərindən olan Bakının göz qamaşdıran təmtərağı, abadlaşan bölgələrimizdir, müasirləşən kəndlərimiz, möhtəşəm körpülərimiz, füsunkar saraylarımızdır...

*Xəzərin nemətləri* milli və təbii sərvətlərimizdir, müstəqilliymizin əbədiliyini, dönməzliyini qoruyan, möhkəmləndirən gücdür...

Bu, zəhmətin, fədakarlığın, alın tərinin insanı hansı zirvələrə yüksəldə biləcəyini göstərən qüdrətdir...

❖ ❖ ❖

Bunlar günümüzün gerçəkliyidir, amma dünənin əksidir...

Dünən - 40 il, 70 il, 100 il, iki əsr... öncə bu dəniz fəlakətlərimizin səbəbkarı idi...

Xəzər və onun nemətləri Azərbaycana əsarət bəxş edən, bir zülmət şahlığının caynağından digər şər imperiyasının əlinə keçməsinə zəmin yaradan savaşlar idi. Qara neftin qaragünlü Azərbaycanı idi...

**Məhz o dahi ŞƏXSİYYƏT - tarixin qara gərdişini nura doğru döndərən Heydər Əliyev nefti də fəlakət mənbəyindən Azərbaycanın xilas açarına çevirə bildi.**

Hələ 40 il öncə imperiya istibdadının nəzarətindən yayınaraq görünən və görünməyən vasitələrlə Azərbaycan neftini Azərbaycan sərvəti kimi millətinin və ölkəsinin yüksəlişinə yönəltdi. *Ən əsası,* gələcək illərdəki istiqlal abu-havasını böyük müdrikliklə duydu və dənizin nemətlərini hələ o dövrdən müstəqillik illərinə hazırladı.

**Heydər Əliyev Azərbaycanla yanaşı, bu dənizə də - Xəzərə də Qurtuluş, Sülh, Sabitlik gətirdi...**

*Heydər Əliyev Xəzəri Azərbaycanın müstəqilliyinə ən böyük təhdiddən ən güclü təminatçıya çevirə bildi.*

*Heydər Əliyev Xəzəri və onun nemətlərini nəhayət ki, Azərbaycan xalqının təbii sərvəti kimi təsbit etdirdi. Xəzərin geosiyasi mövqeyini və qlobal nüfuzunu onun coğrafi xəritədəki miqyasından qat-qat böyük, geniş etdi. Xəzəri azərbaycanlılar üçün qorxu və işğal zəminindən qürur mənbəyinə, sevgi və ehtiram rəmzinə çevirdi, güclü dövlətçilik qətiyyəti sayəsində bu müqəddəs dənizin dibindən çıxan təbii sərvətlərimiz indi dünyanı və Azərbaycanı dostluq kəmərləri ilə qovuşdurur.*

**Bu dənizin üstündəki nəhəng estakadalarda *Azərbaycan neftçiləri* yeni şan-şöhrətli tarix yaradırlar.**

İndi bu dənizin sahilində tikilən böyük port-liman qucağını açıb nəhəng gəmilərin yüklərini yerbəyer edir. Bizə qonaq gələn turistlər bu dənizin sahillərində salınmış müasir bulvarda gəzərkən, gördükləri əzəmətdən, möhtəşəmlikdən heyrət və təəccüblərini gizlədə bilmirlər.

**İlham Əliyev üçün Xəzər doğmadır, əzizdir. Uşaqlığı, gəncliyi bu dənizin sahillərində keçib. Daha sonra Azərbaycandıkı ilk iş yeri də Xəzərlə, onun nefti ilə bağlı olub. O, Xəzərin Azərbaycan sektorunu qarış-qarış tanıyır, onun hər buruğunu, platformasını ziyarət edib. Xəzərin nemətlərinin istifadəsi üçün "Əsrin müqaviləsi"nin imzalanmasında, bu çətin prosesin rəvan yola keçməsində Heydər Əliyevin ən yaxın silahdaşı, məsləhətçisi olub.**

***Azərbaycan Prezidenti*** *kimi Xəzərin nemətlərinin dünyaya çatdırılmasında əfsanələri gerçəyə çevirib, Xəzəri neftlə yanaşı, həm də qaz nəhəngi kimi tanıdıb, qəbul etdirib. Avropaya doğru uzanan neft və qaz kəmərlərinin müəllifi olub. Avropalıların evini Azərbaycan-Xəzər qazının hərarəti, istiliyi ilə təmin edib.*

İlham Əliyev dörd bir tərəfdən gələn təzyiqlərə, təsirlərə sinə gərərək Xəzəri təəssübünü çəkdiyi Müstəqil Azərbaycanın əmlakına, sevdiyi və arxalandığı xalqının mülkiyyətinə çevirib.

İndi Xəzərin sahilləri hamımızın sevimli yeridir. Bulvarın dəmir məhəccərinə söykənərək Xəzərə baxırıq, dincəlirik, yüngülləşirik, ruhumuz şad olur... Amma əslində, Xəzərdə onilliklərdir bir dəyişiklik yox - həmin dalğalar, həmin xəzri mehi, həmin adalar...

Amma bulvardakı gəmilərin birinə əyləşərək, dəniz seyrinə çıxdıqda, bu dəfə Xəzərdən onun sahil xəttinə baxdıqda dəyişikliklərin hər ay, hər gün baş verdiyini görürük. Və beləliklə, hər birimiz müstəqillik və quruculuq tarixinin şahidinə çevrilirik...

**Bir baxın, dənizdən AZƏRBAYCAN - hamımızın sevdiyi Azərbaycan daha möhtəşəm, daha qüdrətli, daha məğrur görünür!..**

❖ ❖ ❖

## OD...

*Mənim təsvir etdiyim Azərbaycan mənzərəsində görünən od, ölkələrin, xalqların taleyində zəbanə çəkən cəhənnəmlərin odu deyil!*

Bu, öz xalqı, dövləti üçün döyünən sevgi dolu bir qəlbin odudur...

*Odlar Yurdunun Yer üzündə yayılan şöhrətidir, dünyanı, bizi sevən dostları Azərbaycana səsləyən, Vətənimizin cəlalını, abadlığını görüb fərəhlənməyə dəvət edən müjdə tonqalıdır.*

**İnsanlar arasındakı buzları əridən, toplumların bir-biri ilə soyuqluğundan, qarşılıqlı qovğalarından büzüşüb yumağa dönmüş tarixin qırışığını açan mədəniyyət ocağıdır, multikulturalizm, tolerantlıq ənənələrinin istisidir.**

*Bu od - Azərbaycandan Yer üzünün bəlli bir parçasına hərarət payı göndərən, həyata enerji verən, xoş niyyətləri hərəkətə gətirən güc qaynağıdır - Azərbaycanın neftidir, qazıdır.*

**Bu, yaxın-uzaq diyarlarda günahsız insanların başına ələnən oddan deyil, qəlbləri, könülləri isidən, dünyanın hərarətini tənzimləyən, bəşəriyyətin başını uca edən oddur, dünyamızı qaranlıqlardan işığa doğru çıxaran yanar MƏŞƏLdir...**

❖ ❖ ❖

## SƏMA...

**Mən Azadlığı həmişə səma kimi təsəvvür etmişəm.**

*Başımızın üstündəki* Vətən səması *Azərbaycanın azadlığıdır, xalq olaraq, bu xalqın təmsilçiləri olaraq bizim hər birimizin özgürlüyümzdür. Müstəqil Azərbaycan dövlətinin bizim üçün yaratdığı azadlıqlardır: söz azadlığıdır, öz rəyini ifadə azadlığıdır, vicdan azadlığıdır.*

Azərbaycan üzərindəki səma bu torpaqlardakı tolerantlıq mühitinə, milliyyətindən, dilindən, dinindən asılı olmayaraq insanların bir-birinə sayğı bəsləməsinə, əksəriyyətin dini xurafat kimi deyil, mənəviyyat çeşməsi kimi qəbul etməsinə görə Tanrının öz bəndələrinə həmişə bir addım daha yaxın olduğu, içdən gələn duaların Tanrı dərgahına daha tez yetişdiyi bir yerdir.

**Azərbaycan səması xeyir mələklərinin görüş yeridir...**

***Və bu müqəddəs səmanın qorunmasında şəhid olmuş qəhrəman şahinlərimizin ruhu qarşısında baş əyirik...***

*Azərbaycan üzərindəki səma sülhpərvərliyin rəngidir, əmin-amanlığın aydınlığıdır, bir insan üçün ən müqəddəs amal, həyatın ən böyük dəyəri, mənası bu rəngi qorumaqdır, bu aydınlığa xələl gətirməməkdir.*

***Azərbaycan səması*** **dövlət bayrağımızdakı üç rəngin - göyün, qırmızının, yaşılın timsalında türkçülüyün, müasirliyin və islami dəyərlərin aylı-ulduzlu xoşbəxtliklə qovuşduğu yerdir, Yer üzündə getdikcə qatılaşan zülmətdən qurtuluş üçün ümumən dünyamızın üzərinə düşən işıqdır.**

❖ ❖ ❖

## Və ŞƏXSİYYƏT!...

Axı, həyatın bu dörd ünsürünə yeni məna verən, onları Azərbaycan mənzərəsinin misilsiz gözəlliyinə, qüruruna, fərəhinə çevirən bu qüvvə də var.

**Şəxsiyyət! Bəli, məhz Şəxsiyyət!...**

**Şəxsiyyətsiz bunların heç biri baş verməzdi...**

*Şəxsiyyət qüdrətindən xali halda bu torpaqlar da qana boyanmazdımı, bu dəniz göz yaşlarımızdan yaranmazdımı, bu od özümüzü yandırıb yaxmazdımı, bu səmadan üstümüzə atəşlər yağmazdımı?!...*

**Bu şəxsiyyət Heydər Əliyevdir!..**

*Əgər ötən əsrin 90-cı illərində taleyimiz bu böyük dövlət adamının yox, başqasının əlində olsaydı, Azərbaycanda Torpaq da, Dəniz də, Od da, Səma da indi başqa rəngdə idi.*

**Bu şəxsiyyət İlham Əliyevdir!..**

*Əgər Heydər Əliyev 1993-cü ildə param-parça, dağınıq halından bir yerə toparlamağa başladığı, əsl müstəqil dövlət kimi başdan qurub yaratdığı və 2003-cü ilin sonlarına tam qurulu, sahmanlı bir şəkildə gətirdiyi Azərbaycan dövlətini özündən sonra İlham Əliyevin güvənli əllərinə əmanət etməsəydi, bu gün tarixinin ən qüdrətli çağlarına şahidlik etdiyimiz Azərbaycan bu Azərbaycan olmayacaqdı.*

**Nə yaxşı ki, bu gün məmləkətimizdə *Torpağın, Dənizin, Odun, Səmanın* harmoniyasını öz qüdrəti, qətiyyəti, Vətənə, xalqa sevgisi ilə, iş-gücü ilə tamamlayan *ŞƏXSİYYƏT* var, *SƏRKƏRDƏ* var...**

**Bu böyük ŞƏXSİYYƏTİN, cəsur SƏRKƏRDƏNİN, güclü Ali Baş Komandanın qətiyyəti sayəsində bir neçə gün ərzində əldə edilən hərbi uğurlar artıq hamımızın qürur mənbəyinə, güvənc yerinə çevrilib.**

**Hamı ayaq üstündə, qələbə əzmindədir, Ali Baş Komandanın əmrini gözləyir!..**

*...Ümidliyik... Qürurluyuq...*

*Sevincimiz yerə-göyə sığmır...*

*Azərbaycan qarşısında yalnız yüksəlişlər görünür...*

*Və yeni ucalığa doğru aparan yolda Vətənin bu günlərini arzularında, xəyallarında yaşamış ata-babalarımızın izi var, ruhları da bizimlədir.*

*Bu torpaq bizimdir, bini-bərəkəti ilə!*

*Bu dəniz bizimdir, qırçınlı ləpələri, bol sərvətləri ilə!*

*Bu od bizimdir, ürəklərə nur, dostlara işıq, düşmənin başına ələmək üçün!*

*Bu səma bizimdir, sabahı daha aydınlı etmək üçün!..*

*Bu torpağa, dənizə, oda, səmaya tapınan insanların - müstəqil Azərbaycanın hər bir vətəndaşının duası və nidası birdir...*

*Nə yaxşı ki, Siz varsınız, cənab Prezident!..*

*Yolumuz açıq olsun!..*

**İmamverdi İSMAYILOV**